Ədəbiyyat qəzeti

32 1 may 2021-ci il




# "Söz" dərgisinin mart sayında

"Söz" dərgisinin mart nömrəsi baş redaktor Sevda Əlibəylinin Xalq şairi Nəriman Həsənzadənin 90 illik yubileyinə həsr etdiyi "Şair doğulduğu torpağın səsidir" məqaləsilə açılır. Musa Quluzadənin ustad şairədən bəhs edən "Bir şair yaşayır bu dünyada" məqaləsilə davam edən səhifələri yadigar şəkillər izləyir. Sonra gəlir S.Əlibəylinin qələmə aldığı "Yuxunun çin olmasına əminəm" essesi... "Ömür bitər, yol bitməz" yazısında isə unudulmaz naşir Şəddat Cəfərov, onun yaxın dostu Sərhad Məmmədov xatırlanır.

Tarixçi Dilarə Ağamusa Nağıyevanın "Nağıla bənzər ömür", S.Bəhramqızının Xalq artisti Yalçın Rzazadənin xatirəsinə həsr etdiyi geniş məqalə, Bibixanım Musayevanın general Polad Həşimovu anladan "İnsanlığın zirvəsi Polad Həşimov", Əlisəfa Həsənovun "Murov qartalı", Nurəddin Ədiloğlunun "Behişt zəvvarı", Tahir Aydınoğlunun "İlk poliqrafçı alim, ustad naşir", Sərvaz Hüseynoğlunun tanınmış şair Allahverdi Məmmədlidən bəhs edən "Günlər keçib o günlərdən" başlıqlı anım yazısı da dərginin mart sayında yer alıb.

**Sərvaz**